**“Vergi öhdəliyinin əvvəlcədən müəyyənləşdirilməsi barədə qərarın qəbul edilməsi məqsədilə müraciət” elektron xidmətinin**

**İstifadəçi təlimatı**

**“Vergi öhdəliyinin əvvəlcədən müəyyənləşdirilməsi barədə qərarın qəbul edilməsi məqsədilə müraciət”**in təqdim olunması məqsədilə Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsinə (https://new.e-taxes.gov.az/etaxes/) giriş edib, aşağıda qeyd olunan identifikasiya vasitələrindən istifadə etməklə elektron kabinetə daxil olmaq lazımdır:

- Asan İmza;
- SİMA İmza;
- SİMA Token.

Elektron kabinetə daxil olduqdan sonra açılan əsas səhifədə **“Ərizələr”** modulu seçilir.




Növbəti mərhələdə “Vergi öhdəliyinin əvvəlcədən müəyyənləşdirilməsi barədə qərarın qəbul edilməsi məqsədilə müraciət”in təqdim olunması ilə bağlı “Yeni ərizə” xanasına müraciətə uyğun ərizənin adı yazılaraq axtarış nəticəsində ekranda adı əks olunan ərizə forması və yaxud **“Hamısına bax”** düyməsi vasitəsilə müvafiq ərizə forması seçilir.




Əgər istifadəçi tərəfindən daha əvvəl ərizə doldurularaq qaralamada saxlanılmışdırsa, o zaman ekranda açılan pəncərədə əvvəl qaralaması yaradılmış ərizə formaları əks olunur və seçim imkanı verilir. İstifadəçi əvvəllər qaralaması yaradılmış ərizə forması üzrə davam etmək istədikdə ekrandakı qaralaması olan ərizə forması seçilir və bu zaman aktivləşən **“Davam et”** düyməsi sıxılır. Bu zaman yeni pəncərədə əvvəl doldurulmuş ərizə forması açılır və düzəliş imkanı mümkün olur.



Müvafiq ərizə forması üzrə yeni müraciət yaratmaq istədikdə isə **“Yeni ərizə yarat”** düyməsi sıxılır.




Açılmış ərizə formasında əks olunan **“Siyahıya qayıt”** düyməsini sıxdıqda ekranda əks olunan pəncərədəki **“İmtina”** düyməsini sıxmaqla ərizə formasının doldurulmasına qaldığı yerdən davam etmək, **“Xeyr, silinsin”** düyməsini sıxmaqla yaradılmış ərizə formasını silmək, **“Bəli, yadda saxlanılsın”** düyməsini sıxmaqla yaradılmış ərizə formasının yadda saxlanılması mümkün olur.



"Xeyr, silinsin" düyməsi seçildikdə açılan "Xidmətin yekunlaşdırılması" pəncərəsindəki müvafiq məlumatlar doldurulduqdan sonra aktivləşən **"Göndər"** düyməsi sıxılır.







Açılan ekranda vergi orqanı və vergi ödəyicisi barədə məlumatlar avtomatik olaraq əks etdirilir.



Növbəti mərhələdə ərizəyə əlavə olunmalı sənədlərin təqdim edilməsi üçün **“Fayl yüklə”** düyməsi sıxılır və müvafiq sənədlər sistemə əlavə edilir:

- barəsində qərarın qəbul edilməsi tələb edilən vergi tutulan əməliyyata aid sənədlər;
- vergi tutulan əməliyyatlar üzrə vergi öhdəliklərinin və vergi qanunvericiliyinin tətbiq edilməsinin doğuracağı hüquqi nəticələrə dair vergi ödəyicisinin qeydləri;
- qərarın qəbulu üçün zəruri hesab edilən digər məlumatlar.




Daha sonra “Tanış oldum, məlumatların doğruluğunu təsdiq edirəm” çekboksu seçilir.



Növbəti addımda "**İmzala və göndər**" düyməsi sıxılaraq müvafiq ərizə forması imzalanaraq göndərilə və ya bu əməliyyatdan imtina edilə bilər.







"**İmzala və göndər**" düyməsi sıxıldıqda açılan pəncərədə "**İmtina**" düyməsi seçildikdə istifadəçi yenidən əvvəlki pəncərəyə (məlumat formasının doldurulması pəncərəsinə) geri qayıda bilər.




Ərizə forması imzalanaraq göndərildikdən sonra yeni pəncərədə istifadəçi tərəfindən doldurulmuş məlumatlara uyğun ərizə forması və müvafiq formanın göndərilməsi barədə "Bildiriş" əks olunur. Həmin pəncərədə **"Çap"** düyməsi vasitəsi ilə ərizə çap edilə, **"Endir"** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər. **"Bağla"** düyməsi isə pəncərəni bağlamaq üçün nəzərdə tutulmuşdur.




İstifadəçi tərəfindən göndərilən "Vergi öhdəliyinin əvvəlcədən müəyyənləşdirilməsi barədə qərarın qəbul edilməsi məqsədilə müraciət" onun "Ərizələr" modulundakı "Göndərilənlər" qovluğunda əks olunur və bu hissədə ərizənin statusu barədə məlumat qeyd olunur.




Eyni zamanda bu hissədən **“Çap”** düyməsi vasitəsi ilə ərizə çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər.

